***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 2-də Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinin müxbirinə müsahibəsində Avropanın enerji təhlükəsizliyi ilə bərabər, işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması kimi məsələlər barədə də fikirlərini diqqətə çatdırıb. Dövlətimizin başçısı adları çəkilən iqtisadi rayonlarda bərpa-quruculuq layihələrinin icrası ilə bağlı deyib: "Azərbaycan azad olunmuş ərazilərdə artıq irimiqyaslı infrastruktur layihələrinin icrasına başlayıb. Biz birinci beynəlxalq hava limanını istifadəyə vermişik. İkinci beynəlxalq hava limanının uçuş-enmə zolağı artıq fəaliyyət göstərir və tezliklə hava limanının açılışı olacaqdır. Biz elektrik stansiyaları tikmişik və elektrik xətləri çəkmişik. Avtomobil yolları, tunellər, körpülər və dəmir yolları inşa edirik. Bütün işlər gedir və biz bu işləri yalnız qonşular ilə bağlılığı təmin etmək və daxili istifadə üçün görmürük. Bu səylər, həmçinin Ermənistan vasitəsilə Azərbaycanı özünün Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin icrasına yönəldilib...".***



# Qarabağın sürətlə bərpası ölkəmizin həm sülh niyyətini, həm də potensialını göstərir

Ölkə rəhbəri həmin müsahibəsində azad olunmuş ərazilərin yenidən qurulmasında iştirak edən dost ölkələrin fəaliyyətinə də toxunub. Prezident İlham Əliyev İtaliya şirkətlərinin işğaldan azad edilən torpaqlarda səmərəli işini xatırladaraq, onların həyata keçirdikləri layihələrin miqyasına görə, Türkiyə şirkətlərindən sonra ikinci yerdə olduqlarını vurğulayıb.

Dövlətimizin başçısı Qarabağda tikintisi aparılan Memorial və Zəfər muzeylərinin İtaliya şirkətləri tərəfindən dizayn olunduğunu, eyni zamanda, dörd rayonda - Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə elektrik stansiyalarının avadanlıqlarla təchiz edildiyini  də diqqətə çatdırıb. Prezident İlham Əliyev müsahibədə, həmçinin  İtaliya şirkətinin Şuşada yeni məscidin layihəsinin və dizaynın  hazırladığını xatırladıb.

Azərbaycan Prezidenti müsahibədə bildirib ki, Füzuli Hava Limanı, "Zəfər yolu" kimi meqalayihələrin yerinə yetirilməsi, Zəngilanda Ağalı kəndinin bərpası, yeni su elekrik stansiyalarının, yarımstansiyaların istifadəyə verilməsi, Şuşa şəhərində genişmiqyaslı tikinti-quruculuq işlərinin sürətlə aparılması ölkəmizin həm sülh niyyətini, həm də potensialını göstərir.

Düşməndən təmizlənən ərazilərin  bərpasında quruculuq layihələri ən müasir texnoloji əsaslarla, smart  və ya "ağıllı" konsepsiyalar çərçivəsində həyata keçirilir. Məsələn, Zəngilan rayonunun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən bərpa prosesində tətbiq olunan "ağıllı kənd" layihəsi smart quruculuğun mükəmməl nümunəsidir. Layihəyə uyğun olaraq bərpa işlərində ən müasir şəhərsalma standartları tətbiq olunur.

Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev bütün bunlarla bağlı deyib: "Bu gün biz Ağalı kəndinə köçürülmənin ikinci mərhələsini həyata keçiririk. Artıq 12 ailənin 63 üzvü Ağalı kəndindədir. Onlar evləri ilə tanış olub, açarları təhvil alacaqlar".

O qeyd edib ki, iyulda Ağalı kəndinə 41 ailə - 201 nəfər köçürülüb. Kənddə bütün infrastruktur xidmətləri - "ASAN xidmət", poçt, bank, supermarket şəbəkələri və digər xidmətlər mövcuddur. Kəndin girişində yanacaqdoldurma məntəqəsi də fəaliyyət göstərir. Buradakı iş yerlərində isə yerli sakinlər çalışırlar.

"Bu gün Ağalıya köçən sakinlər arasında müəllimlərimiz də var. Ağalı kəndində 360 nəfərlik məktəb mövcuddur. Məktəbdə son tamamlama işləri aparılır ki, şagirdlərimiz yeni dərs ilində məktəbə gedə bilsinlər", - deyə Vahid Hacıyev bildirib.

Prezident İlham Əliyevin bu məsələdə vurğuladığı əsas məqamlardan biri işlərin kortəbii yox, planlı və sistemli şəkildə aparılması, bərpa ediləcək hər bir kəndin belə Baş planının olması ilə bağlıdır. Sözügedən prioritetlə bağlı ölkə rəhbərinin aşağıdakı fikirləri də bunun bariz ifadəsidir: "Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq Baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni, biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq".

Yeri gəlmişkən, Baş plan yaşayış sahəsinin uzunmüddətli perspektivdə inkişafını müəyyənləşdirən  əsas şəhərsalma sənədidir. Bu planın hazırlanması ərazi vahidi daxilində məskunlaşma coğrafiyasının planlaşdırılmasını nəzərdə tutur. Baş plana şəhərətrafı ərazilərdə ayrı-ayrı yaşayış məntəqələri də daxil edilir ki, bu ərazilərə məskunlaşma prosesinin zəruri tələbləri şamil edilir.

Artıq Şuşa, Ağdam, Füzuli, Cəbrayıl və Kəlbəcər şəhərlərinin baş planları təsdiq edilib. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri zamanı bu planlar təqdim olunub. Hər bir baş plan hazırlanarkən şəhərin özünəməxsusluğu və coğrafiyası nəzərə alınıb. Məsələn, Şuşa şəhərinin Baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb.

Xatırladaq ki, yuxarıda adları çəkilən şəhərlərin Baş planlarının əsasında yaşayış yeri, məşğulluq üçün imkanlar və ictimai-sosial rifah kimi konseptual əsaslar dayanır. Şəhərlərin hər birinin mənzərəli landşaftı, ictimai məkanları, sakinləri və qonaqları üçün rahat həyat şəraiti ilə seçilməsi diqqətdə saxlanılır.

Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda tikinti-quruculuq, bərpa layihələrinin sürətlə aparılması üçün davamlı tədbirlər həyata keçirir. Ölkə rəhbərinin sentyabrın 7-də "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğaldan azad olunmuş ərazilərinin yaşayış məntəqələrində (şəhər, kənd, qəsəbə) tikinti, təmir və bərpa işləri ilə bağlı tədbirlər haqqında" sərəncam imzalaması da bunun bariz ifadəsidir.

Sərəncama əsasən, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğaldan azad edilmiş ərazilərində yaşayış məntəqələrinin (şəhər, kənd, qəsəbə) tikintisi, təmiri və bərpası işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə ilkin olaraq 2 milyon manat vəsait ayrılıb.

Prezident İlham Əliyev sentyabrın 7-də, eyni zamanda,  "Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam, Füzuli, Xocavənd və Tərtər rayonlarının işğaldan azad olunmuş ərazilərinin yaşayış məntəqələrində (şəhər, kənd, qəsəbə) tikinti, təmir və bərpa işləri ilə bağlı tədbirlər haqqında" da sərəncam imzalayıb.

Sərəncama əsasən, Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam, Füzuli, Xocavənd və Tərtər rayonlarının işğaldan azad edilmiş ərazilərində yaşayış məntəqələrinin (şəhər, kənd, qəsəbə) tikintisi, təmiri və bərpası işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə ilkin olaraq 3 milyon manat vəsait ayrılıb.

Hazırda düşməndən təmizlənən yaşayış sahələrində ən müasir infrastrukturun yaradılması və mədəni-tarixi abidələrin bərpası istiqamətində genişmiqyaslı tədbirlər sürətlə gerçəkləşdirilir. Bu çərçivədə görülən  layihələr isə həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsini, həmçinin iqtisadi inkişafını şərtləndirir.

Onu da qeyd edək ki, ölkəmizin yenilənmiş dövlət büdcəsində də artırılan xərclər hesabına yaranan ehtiyat vəsaitlərin yönləndirildiyi istiqamətlər sırasında Böyük qayıdışın sürətlə reallaşdırılması xüsusi yer tutur. Belə ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yolnəqliyyat infrastrukturunun yaradılması, həmçinin ölkəmizin digər regionlarında nəqliyyat-kommunikasiya infrastrukturunun təkmilləşdirilməsi üzrə layihələrin maliyyələşdirilməsi üçün 1 milyard 477 milyon manat vəsait ayrılıb. Yeni xərclərin 2 milyard 986 milyon manatı isə, ilk növbədə,  Böyük Qayıdışın təmin edilməsi üçün Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarında zəruri infrastruktur layihələrinin icrasına yönəldilib.

Bütün bunlar bir daha onu göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı Azərbaycan dövləti üçün ən prioritet məsələdir. Prezident İlham Əliyev 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədə işğaldan azad olunan ərazilərdə aparılan bərpa-quruculuq işlərindən bəhs edərkən deyib: "Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində heç bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik".

Dövlətimizin başçısının bu sözləri deməyə əsas verir ki, ölkəmizin zəngin potensial imkanları azad edilən ərazilərin bərpası və yenidən qurulması istiqamətində səfərbər edilib.

*"Xalq qəzeti"*